**İdxal olunan gilas tinglərində uyğunsuzluğun aşkarlanmasına dair məlumat**

**(1 aprel 2025)**

Əkin-səpin materiallarına nəzarət tədbirləri çərçivəsində Türkiyədən idxal edilən gilas tinglərindən Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən nümunələr götürülərək müayinələrə cəlb olunub.

Aparılan müayinələr nəticəsində Çəyirdəklilərin bakterial ləkəliyi (*Xanthomonas arboricola pv.Pruni*) xəstəliyi aşkarlanıb. Fitosanitar karantin tələblərinə cavab verməyən sözügedən yük partiyası ilə bağlı qanunvericiliyə uyğun qərar qəbul edilərək 17800 gilas tingi məhv edilib.